**Sərbəst auditor**
**E.E. İbrahimov**
**İcazə Q/N - SA/328**

S.Y. Bakuvi küçəsi 35
AZ 1072, Bakı, Azərbaycan
Tel. : +994 (50) 2255050

# MÜSTƏQİL AUDİTORUN HESABATI

**"Xətai-Rabitə-Tikinti" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**
*Təsisçisinə və Rəhbərliyinə*

**Rəy**

Biz "Xətai-Rabitə-Tikinti" Açıq Səhmdar Cəmiyyətinin 31 dekabr 2023-cü il tarixinə əhəmiyyətli uçot siyasətinin və digər izahedici qeydlərin qısa xülassəsindən ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, Cəmiyyətin qoşma maliyyə hesabatları bütün əhəmiyyətli aspektlərdə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS)-ya uyğun olaraq hazırlanmışdır.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika Məcəlləsinin" (IESBA Məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də IESBA məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının MHBS-ə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativin olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz tətib edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir. lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda. BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq. istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamama riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə. bu şərtlər şərçivəsində uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri. habelə əhəmiyyətli audit sübutları. o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

Sərbəst auditor

Elnur İbrahimov

08 may 2023-cü il

Azərbaycan Respublikası Auditorlar Palatası Sərbəst Auditor Elnur Elxan oğlu İbrahimov

*Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü*
*SA 328*

“Xətai-Rabitə-Tikinti” ASC-nin 31 dekabr 2022-ci il tarixə

**Balans hesabatı**

**(Azərbaycan manatı ilə)**

| **Aktivlər** | | **31dekabr 2022-ci il** | **31 dekabr 2023-cü il** |
|---|---|---|---|
| Uzunmüddətliaktivlər | | | |
| Torpaq, tikiliveəavadanlıqlar (əsasvəsaitlər)) | 7 | 279651,94 | 274429,30 |
| Qeyri-maddi aktivlər | | | |
| İnvestisiyalar | | | |
| Iştitrak payı met. ilə uçota alınmış invest-lar | | | |
| **Uzunmüddətliaktivlər cəmi** | | 0,00 | 0,00 |
| Qısamüddətli aktivlər | | - | - |
| Ehtiyatlar | 8 | 6475,63 | **4509,22** |
| - Qısamüddətli debitor borcları | 9 | 67512,77 | **71390,25** |
| Pul vəsaitləri və onların ekvivalentləri | 11 | 4,33 | 279,52 |
| Sair aktivlər | 10 | 230771,23 | 242649,12 |
| Sair qısamüddətli Maliyyə aktivləri | | - | |
| **Qısamüddətli aktivlər cəmi** | | | |
| CƏMİ AKTİVLƏR | | **584415,90** | **593257,41** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| (Nizamnamə) kapitalı | 16 | 46600,00 | 46600,00 |
| Kapita lehtiyatları | | 22500,000 | 225000,00 |
| Bölüşdürülməmiş (mənfəət-zərər) | | | - |
| **CƏMİ KAPİTAL** | | **271600,00** | **271600,00** |
| Öhdəliklər | | | |
| **Uzunmüddətliöhdəliklər** | | | |
| Uzunmüddətli faizxərcləri yaradan öhdəliklər | 12 | 0,00 | 0,00 |
| Uzun müddətli faizxərclər iyaradan öhdəliklərin cəmi | | **0,0** | **0,00** |
| **Qısamüddətliöhdəliklər** | | **312386,39** | **321137,00** |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 13 | - | - |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 14 | **578,27** | **520,41** |
| Qısamüddətli kreditor borcları | 15 | 312815,90 | 321657,41 |
| Sair öhdəliklər | | - | **1233,69** |
| | | - | |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **312815,90** | **321657,41** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **584415,90** | **593257,41** |

Baş Direktor:

Mühasib:

**“Xətai Rabitə Tikinti Açıq Səhmdar Cəmiyyəti**

**31 dekabr 2023-cw il tarixə**

**Mənfəət və Zərərlər hesabatı**

*(Azərbaycan manatı ilə)*

| | 2022-c il | 2023-ci il |
|---|---|---|
| əsas əməliyyat gəlirləri | 7046,88 | 26628,41 |
| Satışın maya dəyəri | 25773,79 | 38506,30 |
| **Ümumi mənfəət (zərər)** | ( - )18726,91 | (- )11877,89 |
| Sair əməliyyat(əsas vəsaitlərin təqdim edilməsindən) | | |
| Xərclər | | |
| Material və xammal | 868,40 | 6562,60 |
| **əmək haqqiüzrə xərclər** | 12256,43 | 18961,03 |
| Amortizasiya xərci | 6351,07 | 5222,64 |
| Social sığorta ayırmaları | 2632,02 | 4091,26 |
| Rabitə xidmətləriüzrə xərclər | 636,15 | 422,71 |
| Bank xidmətləri üzrə xərclər | 271,88 | 194,87 |
| Enerji xərcləri | 1116,27 | 798,85 |
| sığorta xərcləri | 429,86 | 574,02 |
| Su,knalizasiya xərcləri | 203,35 | 428,65 |
| Torpaq vergisi | 269,10 | 269,10 |
| əmlak vergisi | 578,27 | 520,41 |
| Sair xərclər | 160,99 | 460,16 |
| **Vergi tutmadan əvvəl (mənfəət zərər)** | ( - )18726,91 | ( - )11877,89 |
| Mənfəət vergisi | - | |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 9 - )18726,91 | ( - )11877,89 |
| **Mənfəətdə iştirak payı** | - | - |
| Səhmdarların payı | - | - |
| **Səhmdarın payına düşənbir səhmin mənfəəti:** | - | - |
| Bir səhmin əsas mənfəəti | - | - |

**Baş Direktor:**

**Mühasib:**

**“Xətai-Rabitə-Tikinti” ASC-nin**

**31 dekabr 2023-cü il tarixə**

## Kapitaldə dəyişikliklər haqqında hesabat

***(Azərbaycan manatı ilə)***

| | Nizamnamə | kapitalı | (bölüşdürülməmiş mənfəət və zərər) | Nizamnamə kapitalı |
|---|---|---|---|---|
| | | - | | |
| | | - | | |
| **31 dekabr 2023-cü il tarixə qalıq** | **46600,00** | - | **0.00** | 46600,00 |
| 31 dekabr2023-ciil tarixinə xalis mənfəət (zərər) | | | 0.00 | 46600,00 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | |
| Elan edilmiş dividendlər | | | | |
| Maddələr arasındakı köçürülmələr | | | | |
| **31 декабр 2023-cü u il tarixinə qalıq** | **46600,00** | - | 0,00 | 46600,00 |
| 31 dekabr 2023cü il üzrə xalis mənfəət (zərər) | (-) 11877.89 | | | |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | |
| Elan edilmiş dividendlər | | | | |
| Maddələr arasındakı köçürülmələr | | | | |

**Baş Direktor:** ____________ **Mühasib:** ____________

**Xətai-Rabitə-Tikinti" ASC-nin 31 dekabr 2023-cı il tarixə**

**Pul vəsaitlərinin hərəkəti barəsində hesabat**

**(Azərbaycan manatı ilə)**

| | 2022 | 2023 |
|---|---|---|
| 1.Malların təqdim edilməs və xidmət | 8153,82 | 25830,99 |
| 2.təsisçidən daxil olan | 16355,22 | 18452,40 |
| 3.sifarişçidən alınmış avans | - | 1233,69 |
| 4.əmlakın icarəyə verilməsindən | - | 783,05 |
| 5. avtoyuma sexindən | - | 930,00 |
| 6.ümumi daxi olmuş vəsait | 24509,04 | 47230,13 |
| daxil olan pul vəsaitlərinin hərəkəti | | |
| DSMF-na köçürmələr | 2632,02 | 5284,49 |
| Büdcə ödənişləri | 2186,66 | 5640,48 |
| əmək haqqı və digər ödənişlər üzrə | 13485,48 | 31729,61 |
| Mal material alınmasına | 3576,43 | 4296,03 |
| Kredit ödənişi: | 262,08 | - |

*2357*

*Baş Direktor:* *Mühasib:*

---

## "XƏTAİ-RABİTƏ-TİKİNTİ" Açıq Səhmdar Cəmiyyətinin
**Uçot Siyasəti və Digər İzahedici Qeydlərin Qısa Xülasəsi**

### 1. Cəmiyyət haqqında ümumi məlumat

"Xətai Rabitə Tikinti" Acıq Səhmdar Cəmiyyət bundan sonra Cəmiyyət Adlandırılacaq 06 fevral 2003 cü il tarixdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsi tərəfindən qeydiyyata alınmış və həmin tarixdə 0103P437220 saylı şəhadətnamə almışdır.
Cəmiyyət 06 may 2003 cü il tarixdə Bakı şəhər Vergilər Departamentinin 3 saylı filialı tərəfindən qeydiyyata alınaraq 200104021 saylı VÖEN almış,daha sonra 27 avqust 2004 cü ildə yeni 2000102371 saylı VÖEN almışdır.
Cəmiyyət təsis olunduğu vaxtdan Nizamnaməsində nəzərdə tutulmuş və qanunla qadağan edilməyən işlərin həyata keçirilməsi ilə məşğul olmuşdur.
Cemiyyet hazırda nezdinde müqavilə yolu ilə feallyyet gösteren fiziki şəxslərin vasitesi ilə işlər həyata keçirir.
Cəmiyyətin hüquqi ünvanı: Bakı şəhəri: Məhəmməd Hadi,13X

### 2. Maliyyə hesabatlarının hazırlanmasının əsasları

Hazırkı maliyyə hesabatları 31 dekabr 2023-cü ildə tamamlanan il üzrə Beynəlxalq Mühasibat Uçotu Standartlarına (BMUS) uyğun "XƏTAİ-RABİTƏ-TİKİNTİ" Açıq Səhmdar Cəmiyyətiüçün tertib edilmişdir.

### 3. Uçot siyasətinin təqdimatı

Uçot siyasətinin bu maliyyə hesabatlarının tərtib edilməsində istifadə edilən əsas müddəaları aşağıdakı bəndlərdə göstərilmişdir. Əgər başqa açıqlamalarda istinad qeydləri edilməmişdirsə, göstərilən uçot siyasəti müddəaları təqdim edilən bütün hesabat dövrlərində ardıcıl tətbiq edilmişdir. Maliyyə hesabatlarının BMUS-na uyğun tərtib edilməsi nəzərdə tutur ki, rəhbərlik əsas qiymət göstəricilərini müəyyənləşdirir. Rəhbərlikdən həmçinin tələb edilir ki,Cəmiyyət uçot siyasətinin həyata keçirilməsi sahəsində peşəkar mülahizələr açıqlansın.

### 3.1 Valyutaların yenidən hesablanması

#### a) Funksional valyuta və hesabat valyutası

Funksional valyuta maliyyə hesabatlarında maddələrin ölçülməsi üçün istifadə olunur. Bu müəssisənin yerli valyutası olan Azərbaycan Respublikası manatıdır (AZN).

#### b) Əməliyyatlar və qalıqlar

Xarici valyuta ilə aparılan əməliyyatlar əməliyyatların aparılma tarixinə valyuta məzənnəsinə uyğun olaraq funksional valyutada əks etdirilir. Məzənnə fərqləri funksional valyutalardan fərqli valyutalarda aparılan əməliyyatlar və sövdələşmələr üzrə yaranır və hər bir valyutanın müəyyən sayda vahidlərinin müxtəlif məzənnə kursunda digər valyutaya çevrilməsi nəticəsində yaranan fərq kimi müəyyən edilir. Xarici valyutada aparılan əməliyyatlar üzrə yaranan mənfəət və zərərlər, həmçinin xarici valyutada ifadə edilən monetar aktivlərin və öhdəliklərin hesabat dövrünün sonuna məzənnə kursu üzrə yenidən hesablanmasından yaranan mənfəət və zərərlər, mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

Bu cür əməliyyatlardan yaranan məzənnə fərqləri müvəqqəti olaraq pul vəsaitlərinin və netto-investisiyaların hedcinqləşdirilməsi (aktivlər və öhdəliklərin dəyərinin dəyişməsindən yaranan itkilərdən sığortalanmaq üçün həyata keçirilən əməliyyatlar) kapital hesabına aid edilmişdirsə, məzənnə fərqləri mənfəət və zərərlər haqqında hesabatda əks etdirilmir.

Xarici valyuta məzənnələri
Cəmiyyətin maliyyə hesabatlarının tərtib olunması üçün aşağıdakı valyuta məzənnələrindən istifadə etmişdir:

1 ABŞ dolları:

31 dekabr 2022 1.70 AZN

31 dekabr 2023 1,70 AZN

**4. Əsas vəsaitlər:**

**4.1 Binalar və avadanlıqlar**
Əsas vəsaitlər və maddi aktivlərdir :
a) Mal və xidmətlərin istehsalı və təchizatında istismar edilir, gələcəkdə icarəyə verilmək və ya inzibati məqsədlər üçün istifadə edilir;
b) Bir dövrdən artıq dövr ərzində istifadə edilməsi gözlənilir.
Torpaq və binalara əsasən inzibati bina və ofis sahələri daxildir. Hesabat dövrünün sonuna torpaq və binalar bazar qiymətlərinə müvafiq surətdə ədalətli dəyər üzrə yenidən qiymətləndirilməmişdir.
Yenidən qiymətləndirmə tarixinə yığılmış istənilən amortizasiya məbləği aktivin balans dəyərindən silinir və xalis dəyər yenidən qiymətləndirmə dəyərinə hesablanır. Qalan bütün əsas vəsaitlər ilkin dəyərlə amortizasiya ayırmaları çıxılmaqla əks etdirilir.

Sonrakı xərclər aktivin balans dəyərinə yalnız o vaxt əlavə edilir və ya ayrıca aktiv kimi qəbul edilir ki, bu aktivlərlə əlaqədar olan gələcək iqtisadi səmərələr Cəmiyyətə keçsin və düzgün qiymətləndirilə bilinsin. Qalan bütün cari təmir və istismar xərcləri o dövrün mənfəət və zərərlər haqqında hesabatında əks etdirilir ki, həmin dövrdə bu xərclər çəkilmişdir.
Torpaq və binaların yenidən qiymətləndirilməsi üzrə balans dəyərinin artması kapitalın tərkibində sair ehtiyatlar (rezervlər) hesabına aid edilir. Balans dəyərinin həmin aktiv üzrə əvvəlki yenidən qiymətləndirmə artımı hədləri daxilində azalması birbaşa kapitalın tərkibində ədalətli dəyər üzrə ehtiyatlar (rezervlər) hesabına aid edilir; balans dəyərinin qalan bütün azalmaları mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

**4.2 Amortizasiya**

Digər əsas vəsaitlər üzrə amortizasiya azalan qalıq dəyəri metoduna, yeni əsas vəsaitlərin faydalı istismar müddəti ərzində aşağıdakı illik amortizasiya dərəcələrini tətbiq etməklə, aktivlərin qalıq dəyərinə və ya yenidən qiymətləndirilmiş dəyərinə vurmaqla həyata keçirilir.

- Binalar 5%
- Maşın və avadanlıqlar 20-25%

**4.3. Qeyri-maddi aktivlər**

Cəmiyyət bütün qeyri-maddi aktivləri müəyyən faydalı xidmət müddətinə malik olmaqla əsasən lisenziyalardan ibarətdir.

Lisenziyalar hər hansı bir fəaliyyət növünə dövlət orqanları tərəfindən verilən xüsusi icazələr təşkil edir və verildiyi faydalı xidmət müddəti ərzində bərabər çıxılmalar metoduna əsasən amortizasiya olunur.

**4.4. Aktivlərin qiymətdən düşməsi**

Cəmiyyətdə istismar müddəti müəyyən edilə bilinməyən aktivlər amortizasiya olunmur və hər il qiymətdən düşmə məqsədləri üçün testləşdirmə aparılır. Amortizasiya olunan aktivlər, əgər hər hansı bir hadisə və ya şəraitin dəyişməsi balans dəyərinin bu aktivlərin əvəzinin ödənilmə dəyəri olmamasını göstərirsə, hər dəfə qiymətdən düşmə məqsədləri üçün qiymətləndirilir. Qiymətdən düşmə zərəri aktivin balans dəyərinin onun əvəzinin ödənilmə dəyərindən artıq olan məbğəlində tanınır.

**4.5. İnvestisiyalar**

Cəmiyyət özünün investisiyalarını aşağıdakı şəkildə təsnifləşdirir:

- Ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri;
- Borc vəsaitləri və debitor borclar;
- İnvestisiyalar;
- Satış üçün nəzərdə tutulmuş maliyyə aktivləri.

*(a) Ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri*

*Bu kateqoriya iki alt kateqoriyaya bölünür: ticarət üçün nəzərdə tutulmuş maliyyə aktivləri ilə ilkin tanınmış ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri. Maliyyə aktivləri bu kateqoriyaya o zaman aid edilir ki, onlar yaxın gələcəkdə satış üçün nəzərdə tutulmuşdur.*

*b) Borc vəsaitləri və debitor borcları*

*Borc vəsaitləri və debitor borcları müəyyən edilmiş və ya müəyyən edilə bilən ödəmə müddəti olan və aktiv bazarda qiyməti təyin edilməyən qeyri-törəmə maliyyə aktivləridir. Onlar o vaxt yaranırlar ki, Cəmiyyət debitor borclarının satılması niyyəti olmadan pul vəsaitlərini, malları və xidmətləri birbaşa debitora təqdimedir. Belə borc vəsaitləri və debitor borcları dövriyyə aktivləri kimi təsnifləşdirilirlər və qısamüddətli aktivlərə aid edilirlər.*

*c) Ödəmə müddətinə qədər saxlanılmış (dayandırılmış) investisiyalar*
*Ödəmə müddətinə qədər saxlanılmış (dayandırılmış) investisiyalar təsbit edilmiş ödəmə müddəti olan elə qeyri -törəmə maliyyə aktivləridir ki, onlarla münasibətdə ödəniş müddətinin çatmasına qədər Cəmiyyət onları saxlamağa qət iniyyəti və imkanı vardır. HesabatdövründəCəmiyyətbukateqoriyaüzrəheçbirinvestisiyaolmamışdır.*

*d) Satış üçün nəzərdə tutulmuş maliyyə aktivləri*
*Satış üçün nəzərdə tutuluş maliyyə aktivləri digər kateqoriyalarda təsnifləşdirilməmiş qeyri-törəmə maliyyəalətləridir. Bu maliyyə aktivlərinin satışı ödəmə tarixindən daha əvvəl nəzərdə tutulmuşdur.*

*4.6. Ehtiyatlar*
*Ehtiyatlar faktiki maya dəyəri ilə əks etdirilir. Ehtiyatların maya dəyəri birinci satınalmaların qiyməti üzrə (FİFO metodu) hesablanır. Mayadəyərinə material xərcləri, istehsal işçilərinin əmək haqqı xərcləri, sair birbaşa xərclər, həmçinin inzibati xərclərin müvafiq hissəsi daxiledilir.*

*4.7. Alıcılar və sifarişçilərin debitor borcları*
*Alıcılar və sifarişçilərlə hesablaşmalar ilkin olaraq ədalətli dəyər üzrə əks etdirilir. Sonradan isə qiymətdən düşmə ehtiyatlarının (rezervlərinin) yaradılması metodu ilə amortizasiya olunmuş dəyər ilə uçota alınır.*

*4.8. Pul vəsaitləri və onların ekvivalentləri*
*Pul vəsaitləri və onların ekvivalentləri asanlıqla müəyyən nağd pul məbləğinə çevrilə bilən və dəyəri cüzi dəyişikliklərə məruz qalan maddələrdir. Pul vəsaitləri və onların ekvivalentləri maddəsində kassada olan nağd pul vəsaitləri, yolda olan pul köçürmələri, bank hesablaşma hesabları, digər tələbli bank besabları, pul vəsaitlərinin ekvivalentləri,* bank overdraftları və ödənilmə müddəti üç aydan artıq olmayan digər yüksəklikvidli investisiyalar əks etdirilir.

4.9. Səhmdar kapital
Adisəhmlər kapital kimi təsnifləşdirilir.Yeni səhmlərin buraxılması ilə əlaqədar olan xərclər tərkibində əks etdirilir.

4.10. Kreditlər və borclar
Kreditlər və borclar ilkin olaraq sövdələşmənin aparılmasına çəkilən xərclər çıxılmaqla, ədalətli dəyər üzrə tanınır.

4.11. Mənfəət vergisi
Mənfəət vergisi xərci cari və təxirəsalınmış mənfəət vergisindən ibarət olub, mənfəət və zərər hesabatında qeydə alınır.

Cari mənfəət vergisi, cari və ya əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən və ya zərər ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq (əvəzləşdiriləcək) məbləği təşkil edir.

Təxirə salınmış mənfəət vergisi
Təxirə salınmış mənfəət vergisi üzrə ehtiyat (rezerv) öhdəliklər metodu istifadə edilməklə tam həcmdə yaradılır. Təxirə salınmış mənfəət vergisi, aktivlərin və öhdəliklərin vergitutma bazası ilə onların maliyyə hesabatlarında əks etdirilmiş balans dəyəri arasında meydana çıxan bütün zaman fərqləri üzrə müəyyən edilir.

4.12. Gəlirin tanınması
Gəlirlər, Cəmiyyət adi fəaliyyət gedişində satılmış mallar və ya göstərilmiş xidmətlərə görə alınmış və ya alınacaq məbləğin ədalətli dəyərini əks etdirir. Xidmətlərin realizasiyası müqaviləüzrə göstəriləcək ümumi xidmətlərə proporsional olaraq faktiki göstərilmiş xidmətlərə əsasən qiymətləndirilən konkret əməliyyatın tamamlanma mərhələsinə istinadən həmin xidmətlərin göstərildiyi uçot dövründə qeydə alınır.

Faiz gəlirləri
Faiz gəlirləri effektiv daiz dərəcəsi metodu istifadə edilməklə zaman tənasüblüyü əsasında tanınır.

Dividend gəlirləri

Divident gəlirləri o zaman tanınır ki, səhmdarların mənfəət əldə etmək hüququ müəyyən olunmuşdur.

4.13. İcarə
Mülkiyyət hüququndan irəli gələn risklərin və səmərələrin əhəmiyyətli hissəsinin icarəyə verəndə qalması hallarındakı icarə, əməliyyat icarəsi kimi təsnifləşdirilir. Əməliyyat icarəsi müqaviləsi üzrə ödənişlər bütün icarə müddəti üzrə bərabər hissələrə bölünməklə, mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

**5. Maliyyə risklərinin faktorları**
Cəmiyyət fəaliyyətin adi gedişində bir sıra maliyyə risklərinə məruz qalır.

Bazar riski
Bazar riski alınan və satılan malların dəyişkən qiymətləri, sair xam malların qiymətləri, valyuta məzənnələri və faiz dərəcələri dəyişmələri nəticəsində yaranır. Bazar qiymətlərindəki bu cür dəyişikliklər, dərəcəsindən asılı olaraq, Cəmiyyətin maliyyə vəziyyətinindəyişməsinə səbəb ola bilər. Maliyyə nəticələrinə təsir edə bilən müxtəlif risklərin səmərəli şəkildə idarə edilməsi üçünmüəssisənin əsas strategiyası güclü maliyyə mövqeyinin qorunub saxlanmasından ibarətdir. Müəssisənin rəhbərliyi maliyyə risklərini cari bazar mövqeyinə istinadən müəyyən edir və qiymətləndirir.

Valyuta riski
Cəmiyyət beynəlxalq iqtisadi əlaqələrə malikdir və ona görə də xarici valyuta kurslarının (əsasən, ABŞ dolları, avro, və s.) dəyişməsindən valyuta risklərinə məruz qalır.

Likvidlik riski

Likvidlik riski Cəmiyyətin ödəmə vaxtıçatmış maliyyəöhdəliklərinin yerinə yetirə bilməyəcəyi təqdirdə yaranan riskdir. Likvidliyin idarə edilməsi üçün Cəmiyyət proqnozlaşdırılmış və faktiki pul vəsaitlərinin hərəkətinə davamlı olaraq nəzarət edir, və kifayət qədər pul ehtiyatları saxlayır.

## 6. Debitor borcları

| | 2023 | 2022 |
|---|---|---|
| **Alıcılar və sifariş-in debitor borclar** | 71390,25 | 67512,77 |

## 7. Pul vəsaitləri və onların ekvivalentləri

| | 2023 | 2022 |
|---|---|---|
| Kassadaolannağd pul vəsaitləri | 0,00 | 0,88 |
| Bank hesablarında pul vəsaitləri | 279,52 | 3,45 |
| **Cəmi** | **279,52** | **4,33** |

## 8. Bank hesablarında pul vəsaitləri:

| | 2023 | 2022 |
|---|---|---|
| Milli valyuta da olan pulvəsaitləri | 279,52 | 4,33 |
| Xaric ivalyutalardaolan pulvəsaitləri | | |
| | | |

## 9. Uzunmüddətli öhdəliklər

| | 2023 | 2022 |
|---|---|---|
| Uzunmüddətli öhdəliklər | 0 | 0 |
| **Cəmi** | | |

## 10 Vergi və sairməcburi ödənişlər üzrə

| | 2023 | 2022 |
|---|---|---|
| Vergilər üzrə | 520,41 | 578,27 |
| Sosial sığorta üzrə | 519,16 | 300,00 |
| **Cəmi** | 1039,57 | 878,27 |

## 11 Qısa müddətli kreditor borcları

| | 2023 | 2022 |
|---|---|---|
| Malgöndərən və podratçılara qısamüddətli kreditor borcları | 0 | 0 |
| İşçi heyətinə qısamüddətli kreditor borcları | 1723,75 | 5120,87 |
| Uzunmüddətli borcları | 0 | 0 |
| **cəmi** | **1723,75** | **5120,87** |

## 12. Sair qısamüddətli öhdəliklər

| | 2023 | 2022 |
|---|---|---|
| Sair qısamüddətli öhdəliklər | 319014,63 | 297745,61 |
| **Cəmi** | 319014,63 | **297745,61** |

## 13. Gəlirlər

| | 2023 | 2022 |
|---|---|---|
| Əsas fəaliyyət üzrə gəlirlər | 25176,66 | 5766,88 |
| **əmlakın icarəyə verilməsindən gəlir** | **451,75** | **1280,00** |
| **Cəmi** | 26628,41 | 7046,88 |

## 14. Satışın maya dəyəri elemenləri

| | 2023 | 2022 |
|---|---|---|
| Iççi heyyəti üzrə əmək haqqı | 18961,03 | 12256,43 |
| İşçiheyətiüzrəxərclər - sosialsığortaayı maları | 4091,26 | 2632,02 |
| Bank xidməti | 194,87 | 271,88 |
| Xammal,material | 6562,60 | 868,40 |
| Audit xərci | 0.00 | 0,00 |
| Xarici ekspertler | - | - |
| **Cəmi** | **29809,76** | **16028,73** |

## 15. İnzibati xərclərin elementləri

| | 2023 | 2022 |
|---|---|---|
| Sığorta | 574,02 | 429,86 |
| Amortizasiya xərcləri | 5222,64 | 6351,07 |
| Rabitə xərcləri | 422,71 | 636,15 |
| reklamxərcləri | -, | - |
| Enerji xərcləri | 798,85 | 1116,27 |
| Su kanalizasiya xərcləri | 428,65 | 203,35 |
| Torpaq vergisi | 269,10 | 269,10 |
| əmlak vergisi | 520.41 | 578,27 |
| Digər xərclər | 460,16 | 160,99 |
| **Cəmi** | **8696,54** | **9745,06** |

## 16. Mənfəət vergisi

| | 2023 | 2022 |
|---|---|---|
| Cari mənfəət vergisi xərci | 0 | 0 |
| Təxirə salınmış vergi xərci | 0 | 0 |
| İl üzrə mənfəət vergisi xərci | **0** | **0** |

## 17. Risklərin idarə edilməsi

Cəmiyyətin daxilində risklərin idarə edilməsi funksiyası maliyyə riskləri, əməliyyat və hüquqi risklər ilə əlaqədar olaraq həyata keçirilir. Risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd, bu risklərin azaldılması üçün

nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

18. Hesabat tarixindən sonra baş vermiş hadisələr
Hesabattarixindənsonramaliyyəhesabatlarınaəhəmiyyətlitəsir edə biləcək hadisələrbaşverməmişdir.

**Baş Direktor:** **Cavid Məmmədov**

**Mühasib:** **Zərifə Məmmədova**

"XƏTAİ RABİTƏ TİKİNTİ " ASC-nin **2023-cü il üzrə**

hazırladığı Maliyyə hesabatlarına əlavə

2.1. İdarəetmə hesabatlarınıntərki biaşağıdakı lardanibarətdir:

2.1.1. emitentin tam və qısaldılmış adı: "XətaiRabitəTikinti" ASC

Vergiödəyicisinineyniləşdirmənömrəsi (VÖEN) 2000102371

dövlətqeydiyyatınıntarixi 07.05.2003 ci ilvənömrəsi- 0103-P4-37220

2.1.2. emitentin hüquqi ünvanı və olduğu yer Bakı şəhəri,Xətairayonu, Məhəmməd Hadi,13X

2.1.3. emitentin adında dəyişikliklər olduqda, emitentinbütün əvvəlki adları, habelə onların qeydiyyataalındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi vəya tərkibindən ayrılmas ışəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emiten thüquq işəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları;olmayıb

2.1.4. emitentin hesaba tdövrü ərzində yaranmış və ləğv edilmişfilialları və nümayəndəlikləri ninadı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar;olmayıb

2.1.5. emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hərbi rtörəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquq iünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti; olmayıb

2.1.6. emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərənbir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı;olmayıb

2.1.7. emitentin məşğul olduğu əsas fəaliyyət istiqamətləri;metal qapı,pəncərə istehsalı

2.1.8. emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri;olmayıb

2.1.9. emitentin təklif etdiyi məhsullar və xidmətlər- qapı,pəncərə

2.1.10. emitentin işçilərinin sayı-5(beş) nəfər və onun rüblük dinamikası;

Müəssisə hal-hazırda əsas fəaliyyə tnövü üzrə fəaliyyət göstərir,

2.1.11. emitentin idarə etmə orqanları haqqında məlumat: Baş Direktor:

sədri: Məmmədov Cavid Cahid oğlu

2.1.12. emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayılıqda sayı;

Fiziki şəxs olan səhmdarların sayı - 46 nəfər

Hüquqi şəxs olan səhmdarlarının sayı - yoxdur

2.1.13. emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer

və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı;

**Məmmədov Cavid Cahid oğlu**:Səhmlərin sayı -14382 ədəd; faiz nisbəti - 61.7253 %

**Əzizov Kazım İslam oğlu:** Səhmlərin sayı 6578 ədəd ; faiz nisbəti - 28.2318 %

2.1.14. nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı);

Olmayıb

2.1.15. emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat:

2.1.15.1. yığıncağın keçirilmə tarixi və yeri (ünvan);

15.12.2023 Məhəmməd Hadi ,13X

2.1.15.2. ümumi yığıncaqda qəbul edilmiş qərarlar:

2.1.16. emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir);

Olmayıb

2.1.16.1. investisiya qiymətli kağızın növü və forması;

Olmayıb

2.1.16.2. investisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi;

AZ1001016430 0604.2023

2.1.16.3. investisiya qiymətli kağızların miqdarı 23300 və nominal dəyəri; 2 AZN

2.1.16.4. investisiya qiymətli kağızlar buraxılışının məcmu nominal dəyəri;46600,00

2.1.16.5. hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği göstərilir. əvvələr müəssisə zərərlə işlədiyinə görəsəhmdarlara dividend ödənilməyib)

2.1.16.6. faizli istiqrazlar buraxılışı haqqında məlumatda - istiqrazlar üzrə gəlirliyin illik faiz dərəcəsi;

Olmayıb

2.1.16.7. investisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer (olduqda). olmayıb

2.1.17. emitent tərəfindən bağlanılmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar:olmayıb

2.1.17.1. əqdin məbləği; olmayıb

2.1.17.2. hesabat tarixinə əqdin ödənilməmiş hissəsi. olmayıb

2.1.18. emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar: olmayıb

2.1.18.1. bağlanılmış əqdin mahiyyəti, tarixi və məbləği; olmayıb

2.1.18.2. aidiyyəti şəxs barədə məlumat və emitentlə aidiyyət əlaqəsi. olmayıb

2.1.19. illik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi; 20 iyun 2023-cü il

2.1.20. hesabatın açıqlanma mənbəyi haqqında məlumat.

Müəssisənin nizamnamə kapitalında heç bir dəyişiklik olmayıb.Müəssisə işin az olması ilə ilə əlaqədar olaraq ili 18726,91 ( on səkkizi min yeddi yüz iyirmi altı manatdoxsan bir qəpik) zərərlə başa vurub

2.2. İllik hesabat hər başa çatmış təqvim ilinin nəticələri üzrə hazırlanmalı və emitent məhdud məsuliyyətli cəmiyyət olduqda növbəti ilin ilk 4 ayı ərzində, səhmdar cəmiyyəti olduqda isə, növbəti ilin ilk 6 ayı ərzində səhmdarların (payçıların) illik ümümi yığıncağ tərəfindən təsdiq edilməlidir.

3. Yarımillik hesabatlara dair tələblər

3.1. Yarımillik hesabatlar yalnız qiymətli kağızları kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış emitentlər tərəfindən təqdim olunur.

3.2. Yarımillik hesabatların tərkibinə bu Qaydaların 2.1.1-ci - 2.1.15-ci, 2.1.17-ci, 2.1.18-ci və 2.1.20-ci yarımbəndlərində göstərilmiş məlumatlar daxil edilməlidir.

4.Hesabatların təqdim olunması və məlumatların açıqlanması

4.1. Emitent tərəfindən illik və yarımillik hesabatlar Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinə Qanunun 75.5-ci maddəsinə müvafiq olaraq təqdim edilməlidir. İllik və yarımillik hesabatın səhifələri nömrələnməli, tikilməli, emitentin icra orqanının rəhbəri və baş mühasibi tərəfindən imzalanmalı və emitentin möhürü ilə təsdiq edilməlidir. Hesabatı imzalayan şəxslər illik hesabata daxil olan məlumatların tamlığı və dürüstlüyü üçün Azərbaycan Respublikasının Qanunlarına uyğun olaraq məsuliyyət daşıyırlar.

4.2. Emitent tərəfindən illik və yarımillik hesabatlara dəyişikliklər Qanunun 75.7-ci maddəsinə əsasən həyata keçirilir.

4.3. Emitent tərəfindən illik və yarımillik hesabatın (bu Qaydaların 2.1.13-cü və 2.1.14-cü yarımbəndləri ilə müəyyən edilmiş məlumatlar yalnız qiymətli kağızları kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış emitentlər üçün) açıqlanması Qanunun 75.6-cı maddəsinə əsasən həyata keçirilir.

4.4. Qiymətli kağızları kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış emitentlər yarımillik hesabatlarını Qanunun 75.4-cü maddəsinə müvafiq olaraq açıqlamalıdır.

Baş Direktor: C.C. Məmmədov

Müasib: Z.İ. Məmmədova

XƏTAİ-RABİTƏ-TİKİNTİ